# Dövlət bayrağına münasibət qaydaları

**Əhmədov Əşrəf Eldar oğlu**

**"Elm və təhsil"**
**Bakı – 2017**

## Ön söz

Bayraq Azərbaycan Respublikasının mühüm dövlət rəmzlərindən biridir. Planetimizin hər bir ölkəsi kimi Azərbaycan respublikası da dünya dövlətləri sırasında öz bayrağı ilə təmsil olunur, tanınır. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan ərazisində müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin bayraqları dövlətin xarakterinə, xalqın düşüncəsinə, milli mənəvi keyfiyyətlərinə uyğun bir tərzdə seçilirdi. Bu səbəbdən istər tarixdə, istərsə də indinin özündə hər hansı bir ölkənin bayrağına diqqət yetirsək, həmin bayraq altında hansı cəmiyyət yer alıbsa onun simasını, keçdiyi tarixi inkişaf yolunu, bayraqdakı təsvir və rənglərin mənasını görə bilərik. Ölkəmizin başı üzərində dalğalanan üç rəngli bayrağımız da Azərbaycan xalqının milli mənsubiyyətini, mənəvi dünyasını, tarixi keçmişini və müasir mədəni inkişafını təcəssüm etdirir.

Kitabda nəzərə çatdırılan qanunvericiliyə əsasən əminliklə söyləmək olar ki, Azərbaycan rəhbərliyi tərəfindən dövlət bayrağına xüsusi diqqət və qayğı göstərilir. Respublikamızın hər bir vətəndaşı da, müstəqilliyimizin və dövlətçiliyimizin əsas rəmzlərindən olan dövlət bayrağına böyük hörmət və sayğı ilə yanaşır.

Lakin bu sahədə olan qanunvericilikdə bəzi boşluqların olduğunu diqqətə çatdırmaq istəyirəm. Bir çox dövlətlərin bayraq haqqında olan qanun və nizamnamələrini təhlil edərək qənaətə gəlinmişdir ki, bayrağı tək qanunla qorumaq lazım deyil. Bayrağın keşiyində durmaq hər bir vətəndaşın borcudur.

Bayraqdan istifadə edərkən hər bir vətəndaş münasibət qaydalarına diqqətlə yanaşmalıdır. Nöqsan və çatışmamazlıqları, dünyada və cəmiyyətimizdə baş verən hadisələrə olan münasibət və pozucu halların qanunla tənzimlənməsini tövsiyyə edirəm. Arzu olunmaz halların baş verməməsi üçün Qanunvericilik tələblərinə uyğun olaraq bayraqdan istifadəyə dair bir sıra halları diqqətinizə çatdırmaq istəyirəm.

Qeyd edilən hallar aşağıdakılardan ibarətdir:

Bayraq mövzusunun aktual mövzuya çevirərək tez-tez mətbuatda bu barədə bəhs edilməsi; bayraq haqqında xoşagəlməz halların sayt və internet portallarında yayılması; TV proqramlarda bayraqdan istifadə etmə halları; əcnəbi vətəndaşların bayraqa hörmətsiz yanaşmaları məsələsi; bayraq ilə şantaj etmə; ölkədə fəaliyyət göstərən şirkət bayraqları ilə dövlət bayrağının yanaşı qaldırılması; kriminal şəxslərin məzarlarında dövlət bayrağının yer alması; bayraqdan reklam və şəxsi mənafe məqsədi ilə istifadə edilməsi; bayraqdan geyim, yataq mələfəsi, yaxud bəzək vasitəsi kimi istifadə olunması; ictimai nəqliyyatda və təhsil müəssisələrində bayraqdan istifadə qaydaları; insanların iş yerlərində bayraqdan istifadə qaydaları; dini və əyləncə tipli məclislərdə bayraqdan istifadə; bayrağın öz məzarı üzərində dalğalanmasının əhd edilməsi;

Kitabda bu tip halların dünya ölkələrinin bayraq haqqında olan qanun və qərarlarını ölkəmizin Dövlət bayrağı haqqında olan qanun və qərarları ilə müqayisəsi aparılmışdır. Bizim üçün bu təhlili aparmaq, hər bir vətəndaşın bayraq haqqında biliklərini daha da genişləndirmək məqsədi daşıyır.

Üç rəngli bayrağımız hər bir vətəndaşın qürur mənbəyidir. Bayrağa hörmət dövlətə və xalqımıza olan hörmətdir. Dövlət bayrağını qorumaq, onu hər şeydən uca tutmaq hər kəsin dövlət qarşısında olan borcudur.



**Nizaməddin Şəmsizadə Dövlət mükafatı laureatı,**
**filologiya elmləri doktoru, professor**

Dünyada irili-xırdalı çoxlu xalq var. Lakin heç də bütün xalqların dövləti yoxdur. Biz xoşbəxtik ki, müstəqil dövlətimiz var. Qədim və ulu xalqımızın qəhrəman və müdrik övladları - əcdadlarımız bizə zəngin dövlətçilik tarixi və ənənələri miras qoyublar. Biz ulularımızın bu misilsiz sərvətini göz bəbəyimiz kimi qorumalıyıq. Bu bizim vətəndaşlıq borcumuzdur. Əcdadlarımız min illərlə vətənimizi, dövlətimizi, dövlətçiliyimizi yadellilərlə qanlı döyüşlərdə qəhrəmanlıqla qoruyublar. Bu barədə xalqımız tarix kitablarından, salnamə və xronikalardan əlavə bayatılar, nəğmələr, möhtəşəm eposlar yaradıb: “Kitabi-Dədə Qorqud”, “Koroğlu”, “Qaçaq Nəbi” meydana gəlib.

Azərbaycanda müxtəlif dövrlərdə çoxlu dövlətlər yaranıb, fəqət dövlətçiliyimizin üç zirvəsi var: Atabəylər, Şirvanşahlar və Səfəvilər! Bizim xalqda dövlətə böyük hörmət ənənəsi var. Biz dövlətə, taxt-taca hörməti vətəndaşlığın başlıca şərti hesab edirik, dövlət rəmzlərini müqəddəs tuturuq. Hazırda bu münasibət xüsusi əhəmiyyət kəsb edir.

Müstəqil Azərbaycanın ana yasası – Konstitusiyamızın 23-cü maddəsində yazılıb: “Azərbaycan Respublikasının dövlət rəmzləri – Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir”.

Dövlət bayrağı dövlətçiliyin birinci simvoludur. Hətta sovet dönəmində hərbi hissədə Dövlət bayrağı birinci post hesab edilirdi. Döyüşdə Dövlət bayrağını itirmək məğlubiyyət əlaməti, dövlətçiliyi itirmək sayılır.

Müstəqil dövlətçiliyimizin rəmzləri ilə baglı yeni Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fikirləri tarixi əhəmiyyətə malikdir: "Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir".

Dövlətimizin rəmzləri tarixdə 23 ay ömür sürmüş Azərbaycan Demokratik Cumhuriyyətinin - Şərqdə ilk demokratik respublikanın varisidir. Müstəqilliyimizin bərpası zamanı (1991) biz onları yenidən qəbul etdik. Bayrağımızdakı üç rəng türkçülüyün banisi Əlibəy Hüseynzadənin üçlü düsturumun – "Türkləşmək, islamlaşmaq və müasirləşmək!" ifadəsidir. Mavi rəng milliliyimizi – türkçülüyü, qırmızı rəng müasirliyi – demokratiya və azadlığı, yaşıl rəng – islam sivilizasiyasını, müsəlmançılığımızı bildirir, təsdiq edir. Böyük ədibimiz Cəfər Cabbarlı 1919-cu ilin avqustunda "Azərbaycan" qəzetində dərc olunmuş "Azərbaycan bayrağına" şeirində bayrağımızı vəsf edərək yazmışdı:

Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!





Bəli, biz dünyada bu üç əlamətlə tanınırıq, bu bizim milli kimliyimizin nişanəsidir.

Bu gün müstəqil Azərbaycanın paytaxtı Bakıda dünyanın ən uca bayrağı dalğalanır. O, milli qürurumuzun Günəşə - işığa, azad və əngin səmaya can atan simvoludur. Bu bayrağı qorumaq vətəni, müstəqilliyi qorumaq deməkdir. Ona adi parça kimi baxmaq, hər yerdən asmaq, hər yerə sərmək, qeyrəti olmayan adamların əlinə vermək olmaz. Çünki türk şairi Midhat Cemal Kuntayın təbirincə desək, "Bayraqları bayraq edən üstündəki qandır. Torpaq, uğrunda ölən varsa, vətəndir".

Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında qanunun "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair məhdudiyyətlər haqqında" adlanan 10-cu maddəsində deyilir: "Azərbaycan Respublikasının Dövlət bayrağı masaların və ya kürsülərin üstünə örtük kimi sərilə bilməz, oturulan və ya ayaq basılan yerlərə qoyula bilməz". Bu təqdim olunan təkliflər tamamilə təqdirə layiqdir.

Təqdim olunan bu kitabın əhəmiyyəti ondadır ki, o, əhalidə, xüsusən yeniyetmə və gənclərdə milli bayrağımıza hörmət və məhəbbət hissi formalaşdıracaq, vətəndaşlıq duyğusunu , milli qurur hissini gücləndirəcək, dünya dövlətlərinin, müxtəlif xalqların Dövlət bayrağına munasibəti haqqında məlumat formalaşdıracaq.

Dövlət bayrağını xalq və dövlətçilik qarşısında müstəsna xidmətləri olan dövlət xadimlərinin, dahi sənətkarların və mütəfəkkir alimlərin, vətən uğrunda həlak olmuş milli qəhrəmanların və şəhidlərin tabutu üzərinə örtmək olar. Dövlət bayrağı hər hansı bir əcnəbi, yaxud yerli müəssisədə, şirkətdə mənzil istismar idarəsində yalnız kiçik formatda qoyula bilər.

Azərbaycan bayrağı və digər dövlət rəmzləri azərbaycançılıq fəlsəfəsinin, bizim milli və dövlət ideologiyamızın əyani ifadəsidir.

**RİZVAN HÜSEYNOV**
*Qafqaz Tarixi Mərkəzinin direktoru, UNESCO-nun mənəvi ənənələrin komparativ təqdiqatları, onların mədəni spesifikası və dinlərarası dialoq üzrə Kafedrasının dosenti, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi*

Milli bayraq bizim xalqımızın mədəniyyətini, xasiyyətini və tarixini özündə əks etdirən simvoldur. Bu cəhətdən Azərbaycanın dövlət bayrağı dərin məna əks etdirərək, xalqımız arzularını və inkişaf yolunu özündə ehtiva edir. Azərbaycan bayrağında olan aypara və səkkizguşəli ulduz tək islamı və türkçülük elementlərini daşımır, həmçinin vəhdəd təşkil edərək unikal azərbaycançılıq nişanəsi rolunu oynayır. Azərbaycan bayrağında olan göy rəng bizim türkçülüyümüzü, yəni xalqımızın çox qisminin türk millətinə aid olduğunu bildirir, qırmızı rəng bizim modernləşmə, demokratik inkişaf kursumuzu bildirir, yaşıl rəng isə islam dininə aid olduğumuzu bildirir. Bayrağımızın rəngləri və simvolikası Azərbaycanın prioritet olan inkişaf istiqamətlərini bildirir. Unikal olan bir fakt odur ki, hələ yüz il bundan öncə Azərbaycan üç fərgli vektoru seçib birləşdirməyi bacarıb. Bunlar: türk irsi, avropa inkişafı və islam dəyərləridir. Hələ 20-ci əsrin əvvəllərində Azərbaycan özünə helə bir inkişaf modelini seçdi, hansı indiki müasir cəmiyyətlərdə multikulturalizm və tolerantlıq anlandırılır. Yəni Azərbaycan bayrağı müasir dünyada vacib və aktual dəyərlərə sahibdir ki, bunlar dünyanın siyasi xəritəsində yerləşən müxtəlif xalqların taleyini gələcəkdədə müəyyənləşdirəcək.





# Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Milli Bayraq haqqında Qərarı

9 noyabr 1918-ci il Bakı şəhəri

Milli bayraq kimi, göy, qırmızı, yaşıl rənglərdən və ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin.

Fətəli Xan Xoyski
Azərbaycan Xalq Cümhuriyyəti
Nazirlər Şurasının sədri

## Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında AZƏRBAYCAN RESPUBLİKASININ Q A N U N U

Azərbaycan Respublikasının Ali Soveti qərara alır:

1. Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə təsdiq edilsin.

3. "Azərbaycan SSR-in Dövlət bayrağı haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1956-cı il 5 may tarixli Fərmanı (Azərbaycan SSR qanunları toplusu, 1938-1966-cı illər, c.I, səh. 221; Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1981-ci il, № 5-6, maddə 71, № 12, maddə 161) qüvvəsini itirmiş hesab edilsin.

# Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ƏSASNAMƏ

1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan rəngli üç üfqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir.

Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir.

Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir; böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-ə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60-nə bərabər olan məsafədə yerləşir.

Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

3. çıxarılıb

4. çıxarılıb

5. Azərbaycan Respublikasının Dövlət bayrağı və onun təsviri, ölçülərindən asılı olmayaraq bu Əsasnaməyə əlavə edilən rəngli və sxematik təsvirlərə həmişə dəqiq uyğun gəlməlidir.

6. çıxarılıb

7. çıxarılı





# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında

Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dovlətinin mustəqilliyini təcəssum etdirən muqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xususən gənclərimizə dovlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun mohkəmləndirilməsi işinə bilavasitə xidmət edir.

Dovlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hormət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının muhum amillərindən biridir. Lakin hal-hazırda Azərbaycan Respublikasının dovlət atributlarına həsr edilən normativ aktlardakı tələblərə əməl edilməsinə muəyyən laqeydlik, qeyri-ciddi munasibət muşahidə olunur. Bu sahədəki tədbirlərin məqsədyonlu şəkildə qurulması, tənzimlənməsi və guclәndirilməsi məqsədilə qərara alıram:

Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi, Təhsil Nazirliyi və Elmlər Akademiyası ilə birlikdə «Azərbaycanın dovlət rəmzləri» adlı məlumat kitabının hazırlanıb cap olunmasını, dərslik, plakat, təqvim və digər cap məmulatlarında dovlət atributlarının təbliğ olunmasını təmin etsin.

Təhsil Nazirliyi umumtəhsil məktəblərində, texniki peşə, orta ixtisas məktəblərində, ali məktəblərdə və başqa tədris muəssisələrində dovlət atributlarının oyrənilməsi işini guclәndirmək məqsədilə ciddi tədbirlər gorsun.

Dövlət Radio və Televiziya Verilişləri Şirkəti Azərbaycanın dovlət atributlarına həsr olunmuş silsilə verilişlər hazırlayıb təqdim etsin.

Dövlət orqanlarının, muəssisələrin, idarələrin, təşkilatların və ictimai qurumlarının rəhbərləri dovlət atributlarına həsr edilən normativ aktlarda muəyyən edilmiş tələblərə ciddi əməl olunmasına nəzarəti guclәndirsinlər.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**HEYDƏR ƏLIYEV**
***Azərbaycan Respublikasının Prezidenti***
Bakı şəhəri, 13 mart 1998-ci il № 759





# Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu

**Maddə 1.** Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət göstərilməsi ilə bağlı vəzifələr

1.1. Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.

1.2. Azərbaycan Respublikası onun ərazisindən kənarda Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlərin qarşısının alınması məqsədilə beynəlxalq hüquq normalarına uyğun olaraq tədbirlər görür.

1.3. Azərbaycan Respublikası əhali arasında Azərbaycan Respublikası Dövlət bayrağının mahiyyətinin və əhəmiyyətinin geniş təbliğ olunması, gənc nəslin Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət ruhunda tərbiyə edilməsi məqsədilə tədbirlər görür.

**Maddə 2.** Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılmalı olduğu yerlər

2.1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Prezident sarayının və dövlət iqamətgahlarının üzərində, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Məhkəmə-Hüquq Şurasının, mərkəzi icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prokurorluğunun, Azərbaycan Respublikası

Milli Bankının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Hesablama Palatasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının binaları, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin yerləşdiyi binanın üzərində daimi qaldırılır.

2.2. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının binaları üzərində, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iqamətgahları üzərində beynəlxalq hüquq normalarına və diplomatik protokol qaydalarına uyğun olaraq qaldırılır.

2.3. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının gəmi reyestrlərindən birində qeydiyyata alınmış gəmilərin üzərində qaldırılır.

2.4. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının sərhəd nəzarət-buraxılış məntəqələrinin və sərhədzastavalarının binaları üzərində daimi qaldırılır.

**2.5. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissə və hərbi gəmilərində aşağıdakı hallarda qaldırılır:**

2.5.1. Azərbaycan Respublikasının bayram günlərində;

2.5.2. hərbi andiçmə mərasimində;





2.5.3. hərbi hissələrə və ya hərbi gəmilərə dövlət mükafatları təqdim edildikdə;

2.5.4. hərbi hissələr (bölmələr) və ya hərbi gəmilər xarici dövlətin ərazisində (ərazi sularında) olduqda.

2.6. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində onların qərargahlarının binalarında, hərbi gəmilərində isə Hərbi Dəniz Qüvvələrinin gəmi nizamnamələrinə uyğun olaraq qaldırılır.

2.7. Xarici dövlətin bayrağı altında üzən gəmi Azərbaycan Respublikasının daxili sularında üzərkən və ya Azərbaycan Respublikasının limanında dayanarkən öz bayrağı ilə yanaşı, beynəlxalq dəniz adətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağını da qaldırmalıdır.

**Maddə 3.** Azərbaycan Respublikası Dövlət bayrağının yerləşdirilməli olduğu yerlər

3.1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Milli Məclisinin iclas salonunda, Azərbaycan Respublikası prezidentinin iş otağında, habelə Azərbaycan Respublikası prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası məhkəmələrinin iclas salonunda, Azərbaycan Respublikası Milli Məclisi sədrinin, Azərbaycan Respublikası baş nazirinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin, Məhkəmə-Hüquq Şurası sədrinin, Azərbaycan Respublikası baş prokurorunun, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları başçılarının, Azərbaycan Respublikası Milli Bankı idarə heyəti sədrinin, Azərbaycan Respublikası Mərkəzi Seçki

Komissiyası sədrinin, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin, Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkilinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iş otaqlarında daimi yerləşdirilir.

3.2. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası prezidentinin, dövlət nümayəndə heyəti rəhbərlərinin, xidməti vəzifələrini yerinə yetirərkən diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərlərinin nəqliyyat vasitələri üzərində yerləşdirilir.

3.3.Azərbaycan Respublikasının Dövlət bayrağı qanunvericiliklə müəyyənləşdirilmiş hallarda və qaydada andiçmə mərasimi keçirilən yerlərdə yerləşdirilir.

**Maddə 4.** Azərbaycan Respublikası Dövlət bayrağının təsvirinin istifadəsi

4.1. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri beynəlxalq uçuşları həyata keçirən Azərbaycan Respublikası mülki hava gəmilərinin və Azərbaycan Respublikasının hüdudlarından kənara uçuşlar üçün istifadə olunan hərbi nəqliyyat hava gəmilərinin üzərində vurulur.

4.2. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti sərhəd gəmilərinin və qayıqlarının fərqləndirici nişanı kimi istifadə olunur.

4.3. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri Azərbaycan Respublikasının dövlət mükafatlarının, habelə qanunvericiliklə nəzərdə tutulmuş hallarda rəsmi döş nişanlarının elementi kimi istifadə edilir.





**Maddə 5.** Azərbaycan Respublikası Dövlət bayrağının digər yerlərdə istifadəsi

5.1. Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanlarının, qeyri-hökumət təşkilatlarının, müəssisələrin və idarələrin binaları, habelə yaşayış evləri üzərində qaldırıla (asıla) bilər.

5.2. Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, müəssisə və idarələr tərəfindən keçirilən tədbirlər zamanı qaldırıla (asıla) və ya yerləşdirilə bilər.

5.3. Dərs ilinin birinci günü təhsil müəssisələrində Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır (asılır) və ya yerləşdirilir.

**Maddə 6.** Azərbaycan Respublikası Dövlət bayrağının rəsmi tədbirlər zamanı istifadəsi

6.1. Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət hakimiyyət orqanları tərəfindən keçirilən rəsmi tədbirlər və mərasimlər zamanı qaldırılır (asılır) və ya yerləşdirilir.

**Maddə 7.** Azərbaycan Respublikası Dövlət bayrağının matəm günlərində və matəm mərasimlərində istifadəsi

7.1. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş vəya müvafiq icra hakimiyyəti orqanı tərəfindən elan olunmuş matəm günlərində Azərbaycan Respublikası Dövlət bayrağının dəstəyinin və ya dirəyinin yuxarı hissəsinə eni 10 santimetr olan qara lent bərkidilir və (və ya) Dövlət bayrağı bayraq dirəyinin yarısına qədər endirilir.

7.2. Azərbaycan Respublikasının vəfat etmiş (həlak olmuş) vətəndaşlarına hərbi ehtiram göstərilməsi ilə bağlı Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 8.** Azərbaycan Respublikası Dövlət bayrağının digər bayraqlarla birgə qaldırılması (asılması) və ya yerləşdirilməsi

8.1. Azərbaycan Respublikasının Dövlət bayrağı qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, həmin bayraqların ölçüsü Azərbaycan Respublikası Dövlət bayrağının ölçüsündən böyük ola bilməz.

8.2. Azərbaycan Respublikasının Dövlət bayrağı digər dövlətlərin dövlət bayraqları, habelə beynəlxalq təşkilatların, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxıldıqda, Azərbaycan Respublikasının Dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır.

**Maddə 9.** Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair tələblər

9.1. Azərbaycan Respublikasının Dövlət bayrağı və onun təsviri, onların ölçülərindən asılı olmayaraq, Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

9.2. Azərbaycan Respublikası Dövlət bayrağının sənaye üsulu ilə hazırlanması, düzəldilməsi, rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Blue 313 C rənginə, qırmızı rənginin - Red 185C rənginə, yaşıl rənginin - Green 3405 C rənginə uyğunluğu təmin edilməlidir.

9.3. Azərbaycan Respublikasının Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir.

9.4. Azərbaycan Respublikasının Dövlət bayrağı ya bayraq dirəyi, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır.





9.5. Azərbaycan Respublikasının Dövlət bayrağı elə qaldırılmalıdır ki, onun parçasının aşağı tərəfi yerdən azı üç metr hündürlükdə olsun.

**Maddə 10.** Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair məhdudiyyətlər

Azərbaycan Respublikasının Dövlət bayrağı masaların və ya kürsülərin üstünə örtük kimi sərilə bilməz, oturulan və ayaq basılan yerlərə qoyula bilməz.

**Maddə 11.** Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Azərbaycan Respublikası Dövlət bayrağının bu qanunun tələblərinə zidd istifadəsi, habelə Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur.

**Maddə 12.** Yekun müddəaları

12.1. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

12.2. Bu qanun qüvvəyə mindiyi gündən 1991-ci il 5 fevral tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Əsasnamənin 3-cü, 4-cü, 6-cı və 7-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.

12.3. Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Dövlət gerbi və Dövlət himni kimi, Dövlət bayrağı da Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzidir. Dövlət atributu olaraq Azərbaycan bayrağına ehtiram göstərilməsi ölkə vətəndaşlarının müqəddəs borcudur. Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən dövlət bayrağına and içir. Dövlət bayrağının Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində dalğalanması, ən mötəbər məclislərdə və mərasimlərdə, rəsmi tədbirlərdə və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

Azərbaycanın Dövlət bayrağı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmiş və 1920-ci ilin aprelinə qədər dövlət rəmzi kimi istifadə olunmuşdur. Tariximizin sovet dövründə o, Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə əvəz edilmişdir.

Dağlıq Qarabağ ətrafında cərəyan edən ictimai-siyasi proseslər zamanı ziyalıların təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qeyri-rəsmi olaraq 1988-ci il noyabrın 17-də Bakıda indiki Azadlıq meydanında qaldırılmışdır. Rəsmi olaraq bu bayraq Azərbaycan ərazisində Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı əsasında Naxçıvan Ali Sovetinin binası üzərində ucaldılmışdır. Həmin qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə





də, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuşdur. 1991-ci il fevralın 5-də Azərbaycan ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul edərək, üçrəngli bayrağa Azərbaycan Respublikasının dövlət bayrağı statusunu vermişdir.

1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını qəbul etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanı yaradılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 17 noyabr 2007-ci il*

## Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir. Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir. 2004-cü il iyunun 8-də





"Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilmişdir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamı Dövlət bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edir.

Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədi ilə qərara alıram: Hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 noyabr 2009-cu il.**

## Milli varlığımızın dövlət simvolu

Bütün dünya azərbaycanlılarını birləşdirən üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olub. Həmin dövrdən insanların xatirəsində üçrəngli bayrağımız ilə bağlı Azərbaycan Xalq Cumhuriyyəti Milli Şurası Rəyasət Heyətinin sədri Məmməd Əmin Rəsulzadənin səsləndirdiyi bir çümlə qalmışdır: "Bir kərə yüksələn bayraq bir daha enməz". Amma illər boyu bu cümlənin acısını yaşamağa məhkum olmusuq. Məhkumluğumuzun səbəbi isə cəmi 23 ay sürmüş müstəqilliyimizdir. 23 ay davam etmiş müstəqilliyimiz müddətində yaranmış dövlətimizin qarşıya qoyduğu türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilik prinsiplərini bayrağımız ilə bərabər boğaraq məhv etməyə çalışdılar. İllər ötdü, lakin Azərbaycan xalqı var olduğunu yenidən aləmə subut etdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etdi. Müasir Azərbaycan dövləti yarandı və Azərbaycan Respublikası Müstəqil Dövlət olmasını bəyan etdi. Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Ali qanunvericiliyimiz Konstitusiyada Azərbaycan xalqının milli kimliyini təsdiq edən dövlət rəmzlərimiz barədə maddə təsbit edildi.





Konstitusiyanın 23-cü maddəsində göstərilib ki, Azərbaycan Respublikasının dovlət rəmzləri Azərbaycan Respublikasının Dovlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir. Həmçinin Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində qeyd olunur ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Bundan əlavə, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncamı dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət daşıyıb. "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına hörmət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun", – deyə Heydər Əliyev çıxışlarında dəfələrlə bildirmişdir.

Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2009-cu ilin dekabrın 4-də isə Milli Məclis noyabrın 9-unu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Həmin gün Əmək Məcəlləsinin 105-ci maddəsinə edilən əlavəyə əsasən qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

Azərbaycan Respublikasının bayrağı, Bayraq istifadəsi haqqında qanun və Nazirlər Kabinetinin bayrağın qaldırılması, endirilməsi, saxlanması və istehsalı qaydalarına əsasən

tənzimlənir. Qanunvericiliyimizdə qeydə alınmayan müəyyən hallar vardır ki, onların da qanunla qorunması vacib şərtdir.

Hamının bildiyi kimi, bayraq hər bir ölkənin dövlət atributudur. Digər dövlət atributlarına nisbətən bayraq dövlətin tanınmasında daha böyük əhəmiyyətə malikdir. Dövlətlərin bayraqları haqqında qanunvericilik tələblərini təhlil etmədən öncə vacib bir nüansdan söz açmaq istərdim. İnsanlar dövlətə qarşı sevinclərini, həmçinin etirazlarını əllərinə bayraq alıb yürüş keçirməklə nümayiş etdirirlər. İrqindən və mənsubiyyətindən asılı olmayaraq, bu qaydanı bütün dünyada yaşayan insanlar öz mənəvi dünyalarında qəbul ediblər. Bu səbəbdən bayrağın hər bir istifadə tələbini qanunvericilik ilə tənzimləmək doğru olmaz. Əgər bayrağa doğru bütün tələblər sərt bir şəkildə tətbiq olunsa, ona qarşı daha böyük hörmətsizlik yaranar.

Bu gün başımız üzərində dalğalanan bayraq bizə babalarımızın yadigarıdır. Biz də bu yadigarı özümüzdən sonra gələn nəsillərə ötürmək üçün onun hörmətini daha da qaldırmalıyıq. Buna görə bayrağımıza hörmət qaydalarını hər birimiz mənəvi borc bilməliyik ki, ətrafımızda olan hər kəsdən ona və digər dövlət atributlarına hörmət tələb edə bilək. Əgər dövlət atributlarına qarşı mənəvi gücü bir yerdə nümayiş etdirə bilməsək, kənardan bayrağımıza qarşı uzanan əllərin qarşısını ala bilmərik.

Dövlət atributlarının dövlətçiliyin təbliğində nə kimi əhəmiyyət daşıması və onlardan harada istifadə etməyin məqsədə uyğun olub-olmaması barədə sorğu aparmışam. Onu da qeyd edim ki, sorğu iştirakçıları ayrı-ayrı fəaliyyət sahələrinə mənsub əcnəbilər və öz vətəndaşlarımız olublar. Respondentlərin 87 faizi dövlətləri bayrağa, 9 faizi gerbə, 4 faizi isə himnə görə tanıdıqlarını bildiriblər. 87 faizin böyük





göstərici olmasını nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, bayraq dövlətçiliyin təbliğində olduqca əhəmiyyətlidir. Sorğu iştirakçılarının əksəriyyəti bayrağın istifadə qaydalarından o qədər də məlumatlı olmamalarını bildiriblər. Lakin onlar bayraqdan istifadə qaydaları haqqında geniş məlumata sahib olmaq istəklərini vurğulayıblar. İnsanların bayraq haqqında düşüncələrini təhlil edərək belə qənaətə gəldim ki, bu atributun geniş təbliğata (qanunvericilikdə qeyd olunan və olunmayanlarla birgə) ehtiyacı vardır.

Bayraqdan istifadə hər bir vətəndaşın borcudur. Bayrağın istifadə qaydaları həm qanunvericilik, həm də maarifçilik yolu ilə tam acıq formada təbliğ olunmalıdır. Çünki bir daha xatırladım ki, bayraq hər bir vətəndaşın qürur mənbəyidir.

Məhz bu kimi vacib amilə görə insanlar ondan hansı yerlərdə istifadə etməyin doğru olub-olmadığını bilməlidirlər. Bayraq haqqında qanunlarda və protokol qaydalarında vətəndaşların ondan istifadə qaydaları göstərilib. Lakin bayrağın aliliyini qorumaq üçün öncə qanunvericilik tələblərində "olması vacib sayılmayan yerlərə" aydınlıq gətirilməlidir.

Buna nümunə kimi TV efirlərində yayımlanan müəyyən şou tərtibatlı proqramları, qeyri-etik məclisləri, əcnəbi vətəndaşların bayrağa yanaşma hallarını göstərmək olar. Buna ölkə daxilində fəaliyyət göstərən şirkətlərin bayraqlarının bayrağımız ilə eyni səviyyədə dalğalanmasını, fərdi vətəndandaşların iş yerlərində ondan istifadəni də şamil etmək olar. Bu kimi nüanslar ölkəmizin və əcnəbi dövlətlərin qanunvericilik tələblərində qeydə alınmadığı üçün neqativ hallara tez-tez rast gəlinir. Qanunvericilik tələbində bayrağın istifadəsinə dair məhdudiyyətlərin necə tənzimlənməsinə dünya təcrübəsinə nəzər salmaqla aydınlıq gətirməyə çalışacağıq.

## Dövlət bayrağına münasibət qaydaları

Əvvəlcə onu qeyd etmək istərdim ki, son zamanlar vətəndaş cəmiyyətində bayraq mövzusu çox aktualdır. Bu bir fakt ki, insanlar düşmən mövqe nümayiş etdirən dövlətlərin bayraqlarını yandırmaqla və yaxud tapdalamaqla öz aqressiyalarını nümayiş etdirirlər. Lakin həmin şəxslər anlamırlar ki, onlar bu hərəkətləri ilə minlərlə soydaşını da təhqir etmiş olurlar. Belə ki, bu, fikrimcə minlərlə vətən uğrunda şəhid olanların ruhlarına böyük hörmətsizlikdir. Şərəf və ləyaqət anlayanlar heç vaxt başqasının şərəf və ləyaqətinə toxunmaz. Bayrağı sevmək, ona hörmət etmək dinindən, irqindən, mənsubiyyətindən asılı olmayaraq hər kəsin borcudur. Ən ali qanunvericiliyimiz olan Konstitusiyamız bizə bunu təlqin edir. Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsinə görə hər kəs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etməli, başqa şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır. Bu, bizim xalqın əvəzolunmaz mədəniyyət nişanəsidir. Dünya dövlətlərinin bayraqla bağlı qanunlarında isə belə bir müddəa yoxdur. Amma onu da qeyd etmək lazımdır ki, Səudiyyə Ərəbistanı Krallığının bayraq qanununda dost dövlətlərin bayrağına və digər dövlət atributlarına təhqiredici hərəkət törədən şəxslər həbs və ya pul cəzası ilə cəzalanır.

İkinci bayraq ilə bağlı xoşagəlməz hal sayt və internet portallarında yaşanır. Bildiyiniz kimi, insanlar günün tələbinə uygün olaraq bütün dünyada informasiyaları internet vasitəsilə əldə edir. İnternet informasiyanın yayılmasında daha səmərəli və effektiv olduğu üçün böyük sayda istifadəçi kütləsi vardır. Amma bizim və əcnəbi dövlətlərin Bayraq





haqqında qanunvericiliyində saytlarda bayraqdan istifadə qaydalarına dair hər hansı bir məlumat yoxdur. Halbuki, saytlarda bayrağın təbliği olduqca əhəmiyyətlidir. Amma mənəvi dəyərlərə xələl gətirən saytlarda bayrağın nümayiş olunması hər bir vətəndaşmıza və dövlətimizin formalaşan beynəlxalq imicinə qarşı arzuolunmaz haldır. Dünya praktikasında bu istiqamətdə konkret olaraq bayraq haqqında qanunun tələblərində heç bir qayda qeydə alınmayıb. Səbəb isə sayt və internet portallarının dinamik inkişafının bayraq haqqında qanunların təsdiq olunduğu dövrdən sonraya təsadüf etməsidir.

Üçüncü belə hal əcnəbi ölkələrin televiziya proqramlarında bayraqdan istifadədir. Bu nə qanunvericilik tələblərində, nə də protokol qaydalarında nəzərə alınmayıb. Əcnəbi ölkələrdə elə televiziya proqramları var ki, onların digər dövlətə heç bir bağlılığı yoxdur. Buna baxmayaraq, əcnəbi dövlətin bayrağını nümayiş etdirir. Əgər verilişin əcnəbi ölkəyə heç bir aidiyyatı yoxdursa, hansı məqsədlə həmin dövlətin bayrağını efirində təbliğ edir? Müəyyən məqsədlərə xidmət göstərən verilişlər vardır ki, onlar da əcnəbi dövlətin bayrağını öz efirində nümayiş etdirərək anti-təbliğat aparırlar. Bu halın protokol qaydalarında qeyd olunması vacibdir. Əcnəbi televiziya proqramlarında digər dövlətin bayrağının nümayişi yalnız razılaşdırılmış qaydalarla ola bilər. Bayraq qanunları ilə tanış olduqumuz dünya ölkələrində bu təcrübə qeydə alınmayıb.

Dördüncü hal bayrağa hörmətsiz yanaşan əcnəbi vətəndaşlar vardır. Qanunvericilik tələblərinə uygün hər bir ölkədə bayrağa hörmətsiz yanaşan vətəndaşlar inzibati və cinayət məsuliyyətinə cəlb olunurlar. Həmçinin ölkədə yaşayan əcnəbi vətəndaşlar da eyni cəzaya məruz qalırlar. Əcnəbi vətəndaşların öz ölkələrində və ya kənar ölkələrdə

bayrağımızı təhqir edən şəxslərə qarşı cəza tətbiqi qeyd olunmayıb. Əlbəttə, biz kənar dövlətdə bayrağımıza hörmətsiz yanaşan şəxslərə cəza verə bilmərik. Ölkə hüdudlarından kənar olduğu üçün yalnız beynəlxalq hüquq normalarına əsasən tədbir görülə bilər. Amma həmin şəxsin (və ya şəxslərin) ölkəmizə və dost adlandırdığımız ölkələrə girişinə qadağalar qoymaq, onu dövlətimiz üçün arzuolunmaz şəxs elan etmək olar.

Beşinci hal bayraq ilə şantaj etmədir. Hər bir vətəndaş dərk etməlidir ki, bayrağı başı üzərinə qaldırmaq onun bir nömrəli vəzifəsidir. Bu vəzifəni icra etmək heç bir vətəndaşa əsas vermir ki, bayraqdan şəxsi mənafeyi üçün bir vasitə kimi istifadə etsin. Apardığımız müşahidələrə söykənərək bildirmək istəyirəm ki, bir çox ölkələrdə bu hal vaxtaşırı daha qabarıq formada nümayiş olunur. Bunun qanunvericiliyə salınması vacib bir şərtdir. Hər hansı bir yarışda və ya vətən uğrunda döyüşdə (digər qeyd olunmayan eyni məzmunlu hallarda) zədə almış və ya zərər çəkmiş şəxslərin bayraqdan şantaj vasitəsi kimi istifadə etməsi cəmiyyətdə bayrağa və dövlətə qarşı mənfi fikirlərin oyanmasına yol açır.

Altıncı hal ölkədə fəaliyyət göstərən şirkət və müəssisələrin bayraqları ilə dövlət bayrağının yanaşı qaldırılmasıdır. Hamımıza aydındır ki, hər bir ölkənin vahid bayrağı vardır. Dövlət bayrağının digər ölkələrin bayraqlar ilə birgə qaldırıldıqda eyni, digər şirkət və müəsssələrin həmçinin siyasi partiyaların bayraqları ilə yanaşı qaldırıldıqda nisbətən hündürdə olması məqsədəuyğün olar. İkinci dərəcəli bayraqlar Dövlətin ali bayrağına bərabər tutula bilməz.

Yeddinci hal isə kriminal şəxslərin məzarlarında dövlət bayrağının yer almasıdır. Bu, çox mənfi haldır. Kriminal şəxslər cəmiyyətdə faydalı işlərə imza ata bilərlər. Amma





cəmiyyətin formalaşmasında ən böyük amil psixologiyadır. Nəzəri və məntiqi yanaşma ilə kriminal şəxslərin məzarlarında bayrağının dalğalanmasının mənfi spesifik halların yaranmasına səbəb ola bilməsi danılmazdır. Hamıya bəlli olduğu kimi, bayraq yalnız vətən ugrunda canını fəda etmiş şəxslərin ailələrinə təqdim olunur. Bu, vətəndaş cəmiyyətində müsbət təəssurat yaradaraq cəmiyyət və dövlət arasında sıx bağlılıq yaradır.

Səkkizinci hal bayraqdan reklam və şəxsi mənafe məqsədi ilə istifadədir. Dünya praktikasında da rast gəlinən bu hal ən çox demək olar ki, idman sahəsini əhatə edir. Bəzi idmançılar uğur qazandıqdan sonra dövlət bayraqlarına kənar müdaxilə edirlər. Belə ki, öz foto şəkillərini, ad və soyadlarını dövlət bayrağının üzərinə qeyd edirlər. Yuxarıda qeyd etdiyim kimi, bayraq hər bir vətəndaşa aiddir. Lakin hər bir vətəndaşın bayrağa istədiyi kimi münasibət bəsləməsi qəbuledilməzdir. Elə bu səbəbdən bu kimi xoşagəlməz halların qarşısını almaq istiqamətində ciddi tədbirlər görülməlidir.

Bir çox yerlərdə dövlət bayrağı əks olunan reklamlara rast gəlinir. Bayrağın təbliği üçün reklam əhəmiyyətlidir. Lakin saç düzümü, sənaye məhsulları və sair bu tipli obyektlərdə fonda bayrağın fotosunun əks olunması cəmiyyətdə narazılığa səbəb olur. Amma onu da qeyd etmək istərdim ki, hüquq firmalarında, kitab evlərində fon səkildə bayrağın olmasına da rast gəlinir. Dövlət bayrağının təbliği baxımından bu tip müəssisələrdə bunu heç də pis qiymətləndirmək olmaz. Səudiyyə Ərəbistanı Krallığının bayraq haqqında qanununun tələblərinə görə bayraqdan ticari əlamət və ya ticari təbliğat məqsədilə istifadə qadağandır.

Doqquzuncu hal bayraqdan geyim, yataq mələfəsi, yaxud bəzək vasitəsi kimi istifadə olunmasıdır. Bu vəziyyət bəzi

dövlətlərdə qanun ilə tənzimlənməsinə baxmayaraq, bu günə kimi tam tətbiqini tapmamışdır. ABŞ-ın bayraq haqqında qanununda qeyd olunan hallar qadağandır. Lakin ABŞ-ın bayraq qanunu 1923-cü ildə təsdiq olunmasına baxmayaraq, qeyd olunmuş hal bu günə kimi oz təsdiqini tapmamışdır. Belə ki, ABŞ bayrağının eskizi əks olanan geyim və bəzək əşyalarına rast gəlinir. Bu halın qarşısını almaq üçün maarifçilik işinin gücləndirilməsinə ehtiyac vardır.

Onuncu hal isə ictimai nəqliyyatda və təhsil müəssələrində bayraqdan istifadə qaydalarıdır. Bu istiqamətdə də ciddi maarifçilik işlərinin aparılmasına ehtiyac vardır. Öncə ictimai nəqliyyatda hansı ölçülü bayraqdan istifadə olunmasını dəqiqləsdirmək lazımdir. Bir çox hallarda dövlət bayrağını avtobus pəncərələrinə pərdə əvəzi vururlar. Belə olan halda, bayraq kirlənmiş, ləkələnmiş və korlanmış vəziyyətə düşür. Bu isə ictimai nəqliyyatdan istifadə edən kütləninin bayrağın xoşagəlməz halına vərdiş olma psixologiyasının formalaşmasına şərait yaradır. Belə halların qarşısını almaq məqsədilə dövlət tərəfindən şərnişindaşıma şirkətlərinə ciddi xəbərdarlığın olunması vacibdir.

Hamıya bəllidir ki, elmin inkişaf etdirilməsi naminə ali təhsil müəssisələri arasında əməkdaşlıq formalaşdırmaq labüddür. Cünki əməkdaşlıq sayəsində yaranan təcrübə mübadiləsi elmin inkişafına böyük töhfələr verir. Bu danılmaz faktdır. Amma əcnəbi dövlətlərin bayraqlarını ali təhsil müəssələrimizin istənilən yerində təbliğ etməyə başqa səbəb əsas olmamalıdır. Ali təhsil müəssisələrimizdə bir guşə yaradaraq yalnız həmin təhsil ocağı ilə əməkdaşlıq edən və bizə tərəfdaş cıxan dövlətlərin bayraqlarının foto şəkilləri olan tablo yerləşdirilməsini həm hörmət, həm də mədəniyyətimizin nümunəsi kimi qiymətləndirmək olar.





On birinci hal insanların iş yerlərində bayraqdan istifadə qaydalarıdır. Azərbaycan vətəndaşının öz iş otağında ümumi istifadə üçün nəzərdə tutulmuş bayraqdan istifadə etməsi qanunda nəzərə alınmayıb. Həmçinin bu haqda hər hansı bir qadağa və ya məhdudiyyət də göstərilməyib. Amma iş yerləri haqqında da insanları maarifləndirmək lazımdır. "İş yerləri" ifadəsi böyük anlayışdır. Bunun üçün bir neçə nümunə göstərməyimiz vacibdir. Dövlət qurumlarında, özəl şirkətlərdə və sair iş yerlərində çalışan vətəndaşlar vardır. Bunlarla bərabər bir çox sanitar qovsaqlarında da insanlar çalışırlar. Həmin sanitar qovşaqlar vətəndaşın iş yerə olmasına baxmayaraq, onun otağında bayrağın yer alması dövlət atributuna qarşı böyük hörmətsizlikdir.

Dövlət qurumunda fəaliyyət göstərən şəxslərin hansı halda iş otaqında əcnəbi dövlətlərin bayrağından istifadə etməsi də qanunvericilik tələbləri ilə müəyyən olunmalıdır. Lakin fərdi vətəndaşlar mənəvi istəklərinə uyğun dost dövlətlərin bayraqlarını öz iş otağında yerləşdirə bilərlər.

On ikinci hal isə dini və əyləncə tipli məclislərdir. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinin birinci bəndində deyilir: "Azərbaycan Respublikasında din dovlətdən ayrıdır. Butun dini etiqadlar qanun qarşısında bərabərdir". Ali qanunvericiliyimizin tələblərinə uyğun olaraq məscidlərin daxilində digər dini bayraqlar ilə yanaşı dövlət bayrağının yer alması qanuna ziddir. Bunu ibadət əhlinin dövlətə bağlılığı və hörməti kimi də qiymətləndirmək olar. Amma dövlət bayrağı məscidlərin yalnız giriş qapısının üzərində olsa, ibadətə gələn şəxslər olduqları ölkəni də xatırlamış olarlar. Barlarda, diskotekalarda və şou tipli məclislərdə dövlət bayrağının yer alması hörmət qaydalarına ziddir. Bayrağımıza lazım olan dəyəri özümüz verməliyik ki,

onu gələcək nəsillərə şərəflə təhvil verə bilək. Bu hal Türkiyə Cumhuriyyətinin bayraq qanununda izah olunmayıb. Lakin qanunun qadağalar bölümündə belə bir fikir ifadə olunur. Layiq olduğu mənəvi dəyərə zərbə vuracaq hər hansı başqa bir formada bayraqdan istifadə edilə bilməz.

On üçüncü hal isə bayrağı öz məzarı üzərində dalğalanmasının əhd edilməsidir. Müəyyən insanlar var ki, bayrağın məzarına bükülməsini vəsiyyət edirlər. Heç bir halda bayraq məzarın üzərinə örtülməməlidir. Bu təcrübə həmçinin dünya praktikasında da öz əksini tapır. ABŞ-ın bayraq haqqında qanununun tələblərinə görə bayraq torpağa toxunmamalıdır. Həmçinin Türkiyə Cümhuriyyətinin bayraq qanununun tələblərinə görə yalnız Türk Bayrağı Prezident olmuş şəxslərin, şəhidlərin və nizamnamədə göstərilən hərbi və mülki şəxslərin cənazə mərasimlərində tabuta örtülə bilər. Səudiyyə Ərəbistanı Krallığının bayraq haqqında qanununda əhd halı qeydə alınmayıb, lakin həmin qanunun 14-cü maddəsində bayrağın torpaq və suyun üzərinə vurulması yolverilməz hal oldugu qeyd olunub. Amma əhd etmiş şəxsin məzarı üzərində bayrağın müəyyən vaxt ərzində dalğalanmasına razılıq vermək olar.

On dördüncü hal isə beynəlxalq təcrübədə hələ ki, öz əksin tapmamış dövlət rəsmilərinin protokoldan əlavə din, həmçinin ictimai siyasi xadimlər ilə görüşlər keçirildikdə bayraqdan istifadə qaydalarının qeydə alınmamasıdır. Bu gün bir cox hallarda rast gəlinir ki, dini xadimlər və ictimai siyasi partiya liderləri ilə qeyri rəsmi görüşlərin təşkili zamanı yalnız ziyarət olunan ölkənin bayrağı görüşlərdə nümayiş olunaraq ziyarət edən ölkənin vətəndaş cəmiyyəti tərəfindən ictimai qınaqa çevrilir. Bu səbəbdən böyük kütləni narahat edən belə halların aradan qaldırılması üçün beynəlxalq protokol





qaydalarında bu müddəanın salınması vacib şərtdir. Bu qaydalara əməl etməyən dövlətlərə müəyyən tipli sanksiyalar hazırlanaraq cəzalar tətbiq oluna bilər.

Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanması və istehsalı qaydalarının 16-cı bəndində qeyd olunur:“Azərbaycan Respublikası Dövlət bayrağının qorunması hər kəsin şərəfli vəzifəsidir. Dövlət bayrağı barəsində təhqiredici hərəkətlərin qarşısının alınması və bu məqsədlə müvafiq tədbirlərin görülməsi hər kəsin borcudur. Hər bir vətəndaşımıza səslənərək bildirmək istəyirəm ki, bayrağımızı daim layiq olduğu dəyərə uyğun yerlərdə dalğalandırmaq bizim bir nömrəli borcumuzdur. Azərbaycan Respublikasının Dövlət Bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin vahid ideologiya ətrafında sıx birləşməsinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq, onun təbliği daim diqqət mərkəzində saxlanılmalıdır. Bu, hər birimizin üzərinə düşən dövlət xidməti kimi qəbul edilməlidir.

Bayraq dövlət atributları arasında mühüm əhəmiyyət kəsb etdiyi üçün vətəndaş cəmiyyətində bayraq anlayışı istiqamətində həmişə maarifləndirmə işləri aparılmalıdır. Bayraqdan istifadə qaydaları və qanun müddəalarında qeydə alınmayan hallar təbliğat vasitəsi ilə vətəndaş cəmiyyətinə aşılanmalıdır. Qanunvericilikdə bayraqdan istifadə tələbləri tam şəkildə əks olunmadığı üçün bir cox hallarda vətəndaşların bayrağa yanaşma fikirlərində ziddiyyətlər yaranır.

Bayraq dövlətçiliyin təbliğatı üçün də mühüm əhəmiyyət kəsb edir. Dövlətçiliyi təbliğ etmək, həmçinin bayrağa hörmət hər bir vətəndaşımızın konstitusiya hüququdur. Vətəndaşların hüquqlarını məhdudlaşdırmadan bayraqdan istifadə hallarının vacib olan hissəsini qanunvericilik qaydalarına tətbiq etmək

lazımdır. Qanunvericilikdə qeydə alınan və alınmayan bütün halların təlimat şəklində hazırlanıb əlavə vəsait kimi orta və ali məktəblərdə istifadə olunmasını məqbul qiymətləndirmək olar. Bayrağın istifadə qaydalarına dair təlimatın hazırlanıb təbliğ olunması bayrağa və digər dövlət atributlarımıza qarşı ictimai nəzarəti gücləndirmiş olar.

Hər bir dövlətin müstəqilliyi və suverenliyi onun dövlət rəmzlərində ifadə olunur. Bayraq hər bir Azərbaycan vətəndaşının dünyanın istənilən yerində istifadə etməsi üçün bir vizit vərəqidir. Bütün beynəlxalq tədbirlərdə Azərbaycan dövlətini təmsil edən şəxslər ilə bərabər bayrağımız da yer alır. Yarışlarda qalib olan şəxslərə medallar təqdim olunduqda, bayrağımız qaldırılır. Xarici dövlətlərdə fəaliyyət göstərən diaspor nümayəndələri və vətəndaşlarımız hər bir tədbirdə azərbaycanlı olmalarını, bayrağımızı dalğalandırmaqla ifadə edirlər. Ölkəmizdə bütün nəqliyyat vasitələrinin qeydiyyat nişanlarında bayrağımızın əks olunması dövlətçiliyin təbliğində onun böyük əhəmiyyətə malik olmasının sübutudur. Bayraq hər bir dövlətin beynəlxalq münasibətlər sistemində iştirak etməsi üçün vizit vərəqəsi sayılırsa, xalqımız üçün mənliyini, kimliyini ifadə edən xüsusi atributdur.

Cəmiyyətimizdə belə bir xarakter formalaşıb. Hər dəfə bayraq haqqında fikir səslənəndə onun yaranma tarixi və üzərindəki rənglərin mənası ətrafında söhbət gedır. Əgər biz həqiqətən dövlətimizi yaşatmaq istəyiriksə, bu söhbətlər ilə kifayətlənməyib bayrağa hörmət qaydalarını da hər bir kəsə aşılamalıyıq. Bu gün biz azyaşlı uşaqlara bayrağı dövlət atributu kimi yox, bir yurd kimi dərk etdirməliyik. Harada bayrağımız dalğalanırsa, oranı azyaşlı uşaqlar yurd kimi qəbul etməlidirlər. Bu istiqamətdə ciddi addımların atılması çox müsbət hallara yol açar. Gələcək nəsillərimizin bu





psixologiyada yetişməsi Azərbaycanın suveren hüquqlarının inkişafına böyük töhfə vermiş olar.

Hər bir vətəndaş bayraqdan istifadə edərkən onun məsuliyyətini dərk etməsi üçün təhqiredici və hörmət əlamətlərini bilməsi vacib şərtdir. Qanunvericiliyimizin tələblərinə uyğun olaraq bayrağımız dövlət atributu olduğu üçün ona qarşı təhqiredici hərəkətlər inzibati xəta və cinayət məsuliyyəti yaradır. Lakin həmin hərəkətlərin nədən ibarət olması barədə heç bir izahat verilməyib. Müəyyən təhqiredici hərəkətlər bəzi əcnəbi dövlətlərin bayraq qanununda qeyd olunmasına baxmayaraq, ona qarşı davranış qaydalarını tam ifadə etmir. Bayraq digər dövlət atributları ilə eyni statusa malikdir. Amma dövlətin tanınmasında digər atributlara nisbətən bayraq daha böyük əhəmiyyət daşıyır.

Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı üzərinə götürərkən üçrəngli bayrağa and içir. Üçrəngli bayrağımız hər zaman qəlblərdən günəş kimi doğacaq, bütün dünyada Azərbaycan dövlətinin və xalqının isti nəfəsinin vacib olduğunu sübut edəcəkdir.

Hər bir cəmiyyət daim inkişafdadır. Bu baxımdan qanunlarda dövrün tələbinə uyğun dəyişə bilər. Düşünəndə ki, Birləşmiş Millətlər Təşkilatında qeydiyatda olan 200 yaxın dövlətlərin hər birinin özünə məxsus Bayraq qanunları var, istər istəməz sual doğurur ki, görəsən hansı dövlətin Bayraq qanunu daha təkmildir. Bəllidir ki, Bayraq haqqında qanunları qəbul edərkən hər bir dövlət həm qonşu dövlətlərin həm də başqa qitələrdə yarləşən dövlətlərin Bayraq qanunlarını nəzərdən

keçirir, daha dolğun və geniş qanunlardan istifadə olunur. Bu baxımdan yanaşanda şübhəsiz ki, müstəqil dövlətçilik tarixi böyük olan ölkələrin Bayraq qanunlarının uzun illərdən bəri vaxtaşırı dəyişməsi, tamamlanmasına görə daha təkmil olması heç kimdə şübhə dogura bilməz. Bu səpgidən yanaşanda ABŞ-ın bayraq qanunun uzun illərin dəyişikliyini də özündə əks etdirərək hərtərəfli təkmilləşmiş bir qanun olduğu şübhə doğura bilməz. Düşünürəm ki, yuxarıda sadalanan hallardan əlavə olaraq Bayraq haqqında qanunun daha da təkmilləşməsi üçün ABŞ-ın Bayraq qanununun bəzi müddəaları üzərində düşünərək, AR dövlət bayrağının istifadəsi qaydaları haqqında AR qanununa əlavələrin edilməsi məqsədə uyğun hesab edilə bilər. Əvvəlcə onu da qeyd etmək lazımdır ki, ABŞ-da 1923-ildə qəbul edilmiş qanun və sonrakı illər ərzində ona edilmiş dəyişiliklər daxil edilərkən vahid Bayraq qanunu şəklinə salınmışdır. Həmçinin Səudiyyə Ərəbistanının Bayraq haqqında qanununun müəyyən maddələrindən də istifadə etmək olar. Bu baxımdan AR bundan əvvəl qəbul edilmiş əlavələr, dəyişikliklər, sərəncamlar, əsasnamə işlənilib vahid "Bayraq qanunu" şəklində qəbul edilməsi zamanın tələbidir. Belə ki, Bayraq qanunu ilə bağlı müxtəlif illərdə qəbul edilmiş əlavə sərəncamlar qüvvədən salınaraq yeni əlavə və dəyişikliklərlə vahid bir "Bayraq qanunu" qəbul edilməsi məqsədə uygundur. Səudiyyə Ərəbistanı Krallığının və Amerika Birləşmiş Ştatlarının Bayraq Qanununun aşağıdakı qeyd olunmuş maddələrindən də istifadə edərək Bayraq haqqında qanunvericiliyimizi daha da zənginləşdirmək olar.





## Səudiyyə Ərəbistanı Krallığının bayrağı haqqında nizamnamə hicri tarixilə 1393-cü il

Nömrə m/3

Tarix: 10.02.1393 h

**14- cü maddə:**

- Milli bayraq , eləcə də zati ali Krala məxsus bayrağın torpağın və suyun üzəriinə vurulması yolverilməzdir.

**15- ci maddə:**

- Milli bayrağın, ticari əlamət kimi, və ya ticari təbliğat məqsədlərilə və nizamnamədə nəzərdə tutulmayan digər məqsədlərlə istifadəsi qadağandır.

**20-ci maddə:**

- Milli bayrağı və Krallıq bayrağını, eləcə də Səudiyyə Ərəbistanının hər hansı bir dövlət atribut və ya dost əcnəbi dövlətin bayraq və dövlət atributlarını yerə salan, onları məhv edən (hökumətə və birbaşa dövlətlərin özlərinə qarşı ikrar hisslərilə) şəxs bu əməllləri açıq aşkar, ictimai yerlərdə, insanların toplaşdığı yerdə etdikdə 1 ilə yaxın həbs cəzası ilə və 3 min riyaldan artıq olmayan cərimə ilə cəzalandırılır. Eləcə də bu iki cəzadan biri ilə cəzalandırıla bilər.

Son hökmlər (qərarlar)

## ABŞ-ın Bayraq qanunu

### §172. Bayrağa sədaqət andı; andın içilməsi qaydası

Üzünü bayrağa tutaraq, sağ əlini ürəyinin üstünə qoyub farağat duraraq "Mən Amerika Birləşmiş Ştatlarının, onun təmsil etdiyi Respublikanın, Allahın altında bölünməz bir Dövlətin, hamının azadlığını və hamı üçün ədaləti təmin

edən dövlətin bayrağına sədaqət andı içirəm!" sözlərini deyir. Uniformada olmayanda kişilər baş geyimlərini sağ əllə çıxarıb sol çiyinləri üzərində tutmalı, əl isə ürək üzərində olmalıdır. Uniformadakı şəxslər sakit dayanmalı, üzünü bayrağa çevirməli və hərbi təzimdə durmalıdır.

**§175. Bayrağın hansı vəziyyətdə tutulması və nümayiş etdirilməsi qaydası**

Müəyyən bir törən zamanı bayraq ayrı bir bayraq, yaxud bayraqlarla birlikdə daşınırsa onda o, ya sıranın önündə sağ tərəfdə, yəni, bayrağın özünün sağında, ancaq əgər orada digər bayraqların sırası varsa, onda bayraq həmin sıranın mərkəzinin önündə daşınmalıdır.

*(a) bu bölmənin (i)yarımbölməsində göstərilən haldan başqa parad zamanı bayraq platforma üzərində Ancaq dəstəyi ilə birlikdə daşınmalıdır.

*(b) bayraq avtomobil, dəmiryol qatarı, yaxud qayığın üstünə, yanlarına, yaxud arxasına taxılmamalıdır. Bayraq avtomobilin üstünə taxılanda, onun keçirildiyi dəstək hissə avtomobilin şassisinə, yaxud onun sağ ön qanadına möhkəm bərkidilməlidir.

*(c) Bayrağın üzərinə heç bir ayrı bayraq, yaxud vımpel taxılmamalıdır, belə birisi edildiyi halda, yaxud hərbi dəniz donanmasının kapellanı (keşişi) dənizdə gəminin heyəti üçün kilsə ibadəti yerinə yetirdiyi hallar istisna olmaqla, həmin bayraq, yaxud vımpel ABŞ-ın bayrağının sağında, onunla eyni səviyyədə yerləşdirilməlidir. Heç bir kəs ABŞ ərazisində, yaxud ABŞ-ın nəzarətindəki ərazilərdə BMT-nin, yaxud dövlətin, beynəlxalq təşkilatın bayrağını ABŞ bayrağına üstün, yaxud ona bərabər tuta bilməz. Ancaq BMT-nin iqamətgahı qarşısında BMT-nin bayrağı da daxil olmaqla eyni, yaxud bərabər statusa malikdir. Bu bölmədə göstərilənlər heç də deyiləni qeyri-qanuni olması anlamına gətirmir.





* (d) Əgər ABŞ-ın bayrağı divarda başqa bir ölkənin bayrağı ilə birlikdə asılarsa, onda ABŞ bayrağı sağ tərəfdə bayrağın özünün sağında, bayrağın sapı (dəstəyi) isə o biri bayrağın dəstəyinin qarşısında olmalıdır.

*(e) Ştatların, yaxud müəyyən yerli ərazilərin bayraq və cəmiyyətlərin vımpelləri ilə bir yerdə olduqda ABŞ-ın bayrağı dəstəkdə onların mərkəzində və onlardan hündürdə asılmalıdır.

*(f) Əgər ştatlar, şəhərlər, yerli ərazilərin bayraq və vımpelləri ABŞ-ın bayrağı ilə eyni fal (gəmidə bayrağı, yelkən və sairəni qaldırmaq üçün istifadə olunan ip) ilə qaldırılırsa, ABŞ-ın bayrağı həmişə ən yüksəkdə olmalı və dayanmalıdır. Bayraqlar dəstəkdən asılarsa, ABŞ-ın bayrağı birinci sancılmalı və axırıncı olaraq aşağı endirilməlidir. Heç bir bayraq, yaxud vımpel ABŞ bayrağından yüksəkdə və ondan sağ tərəfdə yerləşdirilə bilməz.

*(g) Bir, ya bir neçə dövlətin bayrağı birlikdə sancılırsa, onların hamısının eyni ölçüdə, ancaq hər birisinin ayrıca dəstəyi olmalıdır. Belə hallara bayraqlar hamısı eyni ölçüdə olmalıdır. Sülh və əmin-amanlıq zamanı bir dövlətin bayrağı o birilərindən hündürdə asıla bilməz. Beynəlxalq qaydalar buna icazə vermir.

*(h) Əgər ABŞ-ın bayrağı üfüqi vəziyyətdə müəyyən bucaq altında hər hansı bir səthdən, yaxud pəncərədən, balkondan asılarsa bayraq dəstəyin lap yuxarı ucuna bərkilir ki, bayraq dəstəyin yarısına qədər sallana bilsin. Əgər bayraq evdən səkinin üstündən kənardakı tirə bağlanmış ipdən asılarsa, bayraqda ölkənin emblemi baş tərəfdə dayanmalıdır.

*(i) Bayraq divara şaquli, yaxud üfüqi vəziyyətdə asılarsa, ölkənin emblemi olan tərəf bayrağın ən hündür yerində sağ tərəfdə, yəni ona baxanların solunda olmalıdır.

Bayraq pəncərədən də əvvəlki qaydada asılır, emblem yaxud mavi hissə bayrağa baxanların sol tərəfinə yönəli durur.

*(j) Bayraq küçənin ortasında asılırsa, o, şaquli vəziyyətdə dayanmalı, şərqə və qərbə doğru uzanan küçələrdə emblem şimala, şimal və cənuba doğru uzanan küçələrdə isə şərqə doğru baxmalıdır.

*(l) Heykəlin, müəyyən bir büstün açılışı mərasimində bayraq onun ən nəzərə çarpan elementini təşkil etməlidir, lakin o heç vaxt heykəlin, büstün üzərinə örtülməməlidir.

*(m) Bayraq endirildikdə o, əvvəlcə bir anlığa dik qaldırılır, sonra isə endirilmə vəziyyətinə gətirilir.Sonra isə bayraq yenədə dik qaldırılır və yenidə aşağı endirilərək bütün günü həmin vəziyyətdə saxlanılır. Anım Günündə bayraq ancaq günortaya qədər endirilmiş vəziyyətdə saxlanılır, sonra isə dəstəyin başına qədər qaldırılır. ABŞ hökumətinin əsas simalarından biri, yaxud hər hansı bir ştatın, yaxud ərazinin, mülkiyyətin qubernatoru öldükdə, ona hörmət əlaməti Prezidentin əmri ilə bayraq endirilir. Digər rəsmilərdən biri, yaxud yüksək rübəli əcnəbi vəfat edtikdə prezidentin göstərişi, yaxud əmri ilə bayraq qanuna, adət və ənənəyə uyğun olaraq endirilir. ABŞ-ın hər hansı bir ştatının, ərazisinin, mülkiyyətinin fəaliyyətdə olan, yaxud keçmiş rəsmisi vəfat etdikdə həmin ştatın, ərazinin, mülkiyyətin qubernatoru bayrağın endirilməsini elan edə bilər. Prezident, yaxud keçmiş prezident öldükdə bayraq 30 gün, vitse-prezident, ali məhkəmənin cari, yaxud təqaüddə olan sədri, cari yaxud təqaüddə olan ədliyyə naziri (o, həmdə baş prokurordur), nümayəndələr palatasının spikeri öldükdə 10 gün endirilmiş olur. Ali məhkəmə sədinin müavini, nazir, müdafiə naziri, keçmiş vitse-prezident,icra





orqanının başçısı, yaxud hər hansı ştatın, ərazinin, mülkiyyətin keçmiş qubernatoru öldükdə onların öldüyü gündən dəfn olunduğu günədək, konqressin üzvü öldükdə onun ölüm günü və sonrakı gün bayraq endirilir. Bu yarım bölmədə terminlər aşağıdakı mənalarda işlənmişdir:

*(1) *Barağın endirilməsi* dedikdə bayrağın öz dəstəyinin yuxarı ucu ilə aşağı ucunun ortasında olması nəzərdə tutulur.

*(2) *icra orqanı, yaxud müdafiə nazirliyi* dedikdə beşinci sərlöhvədə 101 və 102 başlıqlarda nəzərdə tutulmuş qurumlar nəzərdə tutulur.

*(3) Konqress üzvü dedikdə senator, nümayəndələr palatasının üzvü,ərazi nümayəndəliyinin təmsilçisi, yaxud Puerto Rikonun rezident kommissarı nəzərdə tutulur.

*(n) Bayraq tabutun üzərinə örtüldükdə bayrağın dövlət embleması olan tərəfi baş və sol çiyin tərəfə sərilir. Bayraq qəbrə endirilməməli, yaxud torpağa toxunulmasına icazə verilməməlidir.

*(o) Əgər bayraq yalnız bir əsas girişi olan hər hansı binanın koridor, yaxud vestbülünə qoyulursa, onda şaquli dayanmış bayrağın dövlət emblemi olan tərəfi ora daxil olanların sol tərəfində olmalıdır. Əgər binanın bir neçə girişi varsa, giriş şərq, yaxud qərbə, yaxud yalnız şərqə, şimala, yaxud cənuba doğru açılırsa, onda bayraq şaquli vəziyyətdə koridorun, yaxud vestibülün ortasına yaxın qoyulmalı, emblem şimala baxmalıdır.

**§176. Bayrağa hörmət**

*(a) Həyata, yaxut mülkiyyətə çox böyük təhlükə yarandığı anlar istisna olmaqla bayraq heç vaxt emblemi başıaşağı asılmamalıdır.

*(b) Bayraq özündən aşağı heç nəyə, məsələn, yerə, döşəməyə, suya, yaxud ticari məhsullara toxunmamalıdır.

*(c) Bayraq heç vaxt yanı üstə, yaxud üfüqi vəziyyətdə yox, həmişə sərbəst və yanlardan heç nəyə toxunulmadan daşınmalıdır.

*(d) Bayraqdan heç vaxt geyim, yataq mələfəsi, yaxud bəzək vasitəsi kimi kimi istifadə olunmamalıdır. O heç vaxt bəzək, naxış, geri dartılma, qatlanma kimi yox, dəstəkdən sərbəst şəkildə sallanmış halda daşınmalıdır. Bayrağın materialındakı mavi, ağ və qırmızı rənglər həmişə üstdə mavi, aşağıda qırmızı, ortada isə ağ olmaqla düzülməlidir. Rənglərin bu cür düzülüşündən istifadə etməklə bayraq materialından spikerin masası, tribunanı üzləmək və ümumiyyətlə dekorasiya kimi istifadə oluna bilər.

*(e) Bayraq heç vaxt düyünlənməməli, asanlıqla cırılma, ləkələnmə, çirklənmə, zədələnməsinə səbəb olacaq vəziyyətdə qaldırılmamalıdır.

*(f) Bayraqdan heç vaxt dam örtüyü kimi istifadə etmək olmaz.

*(g) Bayrağın, yaxud onun hər hansı bir hissəsinin üzərinə heç bir işarə, fərqlənmə nişanı, hərf, söz, fiqur, haşiyə, şəkil, yaxud hər hansı rəsm qoyula bilməz.

*(h) Bayraqdan heç vaxt malların alınması, saxlanması, daşınması, paylanması üçün tara (müxtəlif tipli qab, yeşik, kisə və s.) kimi istifadə oluna bilməz.

*(i) Bayraq heç vaxt nəyisə reklam etmək məqsədilə istifadə oluna bilməz. Bayrağın təsviri çap, yaxud basma üsulla balışüzü, yaxud cib yaylığı, eləcə də kağız salfet, yaxud qutular, müvəqqəti istfadə üçün istehsal olunan, sonra isə atılan digər malların üzərinə vurula bilməz. Bayrağın asıldığı dəstək, tir və sairə üzərinə afişalar yapışdırıla bilməz.

*(j) Bayrağın heç bir hissəsi paltar, yaxud idman forması kimi istifadə oluna bilməz. Bununla belə, bayrağın parçadan olan kiçik forması hərbçilər, yangınsöndürən,





polis işçiləri və vətənpərvərlik təşkilatlarının geydikləri formaların döşünə yapışdırıla bilər. Bayraq canlı bir ölkəni təmsil etdiyindən özü də canlı bir varlıq hesab edilir. Buna görə də bayrağın kiçik ölçüdə forması pencəyin sol yaxasının (latskanının) üstünə ürəyə yaxın sancaqlana bilər.

*(k) Bayraq yararsız hala düşüb istdadə üçün münasib olmadıqda, hörmətə layiq halda, yaxşı olar ki, yandırılmaqla məhv edilməlidir.

**§177. Bayrağın sancılması, endirilməsi, yaxud aparılması qaydaları**

Bayrağın sancılması, endirilməsi, yaxud parad, yaxud baxış keçirilərkən bayrağın aparılması zamanı uniformada olanlardan başqa orada iştirak edən bütün şəxslər farağat dayanaraq üzlərini bayrağa çevirməli, və sağ əllərini ürəklərinin üstünə qoymalıdırlar. Uniformada olanlar isə hərbi qaydada salam verməlidirlər. Uniformada olmadıqda isə onlar baş geyimlərini sağ əllə çıxarmalı, sol çiyinləri üstündə tutmalıdırlar, əl isə ürəyin üstündə durmalıdır. Əcnəbi vətəndaşlar isə ancaq farağat dururlar. Hərəkətdə olan kalonda bayrağa salam ancaq şəxsin yanından keçdikdə verilir.

**§178. Qayda və ənənələrin prezident tərəfindən dəyişdirilməsi**

ABŞ-ın Ali Baş Komandanı lazım və münasib bildiyi zaman dövlət bayrağının burada göstərilən nümayişi qaydası, yaxud ənənəsi dəyişdirilə, ona düzəlişlər, yaxud müəyyən qaydalar ləğv edilə, yaxud ona əlavə qaydalar daxil edilə bilər; hər bir belə dəyişiklik, yaxud əlavə edilən qayda ictimaiyyətə açıqlanmalıdır.

**§179. Xidməti bayraqların dizaynı; bayrağı daşımağa ixtiyar verilmiş şəxslər**

ABŞ-ın Silahlı Qüvvələrinin qoşulduğu münaqişə və

düşmənçilk hərəkətlərinə cəlb olunduğu hallarda Müdafiə Nazirinə xidməti bayraqların dizaynını formasını seçmək, ABŞ-ın silahlı qüvvələrində xidmət edənlərin ailə üzvlərinin evlərində bayrağın asılacağı pəncərə və yerləri müəyyən etmək səlahiyyəti verilmişdir.

**§180. Xidməti paltarların (uniformaların) düymələrinin dizaynı; belə düyməli paltarları geyməyə ixtiyarı olan şəxslər**

Müdafiə Nazirinə səlahiyyət və göstəriş verilmişdir ki, ABŞ-ın Silahlı Qüvvələrinin münaqişə və düşmənçilk hərəkətlərinə cəlb olunduğu hallarda xidməti paltarların (uniformaların) düymələrinin dizaynını təsdiq etsin və ABŞ-ın silahlı qüvvələrində xidmət edənlərin ailə üzvlərinin hansı düymələrdən istifadə etməsini müəyyən etsin.

**§181. Dizaynların Müdafiə Naziri tərəfindən təsdiqi; istehsala və satışa icazə verilməsi; cərimələr**

Müdafiə Nazirixidməti bayraq və kitellərə tikilən düymələrin dizaynını təsdiq etdikdə, o yazdığı qeydlə birlikdə deyilən xidməti bayraq və kitel və sair düymələrin təsvirini də Federal Reyestrdə çap olunmaq üçün verməlidir. Bundan sonra hər bir şəxs Müdafiə Nazirinə müraciət edib onların istehsalına və satışına icazə ala bilər. Belə xidməti bayraq və düymələri istehsal edən hər bir şəxs, firma, yaxud korporasiya birinci olaraq bunun üçün icazə almamışsa, yaxud bu başlıqdakı 179-182 bölmələrdəki müddəaları pozarsa 1000 ABŞ dollarına qədər cərimə olunacaq.





**Qarışıq müddəalar ABŞ-n qanunu**

**Dördüncü başlıq**

**I fəsil – Bayraq**

**§3. Bayraqdan reklam kimi istifadə edilməsi: bayrağın kəsilməsi, doğranması**

Hər hansı bir şəxs Kolumbiya rayonu ərazisində hər hansı bir tərzdə ABŞ bayrağını (ABŞ-ın bayrağına ölkədə standart, rənglər, rəmzlər də deyilir - tərcüməçi) sərgiləmək, yaxud nümayiş etdirmək, üzərinə hər hansı bir söz yazmaq, işarə qoymaq, haşiyə, şəkil çəkmək, hər hansı bir reklam, afişa yapışdırmaq və belə hala salınmış bayrağı nümayiş etdirmək, gəzdirmək, Kolumbiya rayonunda belə hala salınmış bayraqları istehsal etmək və satmaq, onu bir ticari əşyaya çevirmək, onu aşağılamaq və digər belə hərəkəti edən şəxs məhkəmənin hökmü ilə 100 dollara qədər cərimələnə, yaxud 30 günədək həbs cəzası ala bilər, məhkəmə bu cəzanın hər ikisini də eyni zamanda tətbiq edə bilər.

**ABŞ-ın Qanunu**

**18-ci Başlıq**

**I hissə. Cinayət və cinayət prosesual məcəllə**

**33-cü Fəsil –Emblemlər, fərqləndirici nişanlar və Titullar**

Bu başlıq 25 iyun 1948-ci ildə qüvvəyə minmişdir.

**§700. ABŞ bayrağının təhqir edilməsi (murdarlanması)**

*(a) ABŞ bayrağını bilərəkdən kəsib-doğrayan, yandıran, çirkləndirən, fiziki cəhətdən eybəcər hala salan, onu yerdə, yaxud döşəmə üzərində saxlayan, taptalayan hər kəs bu maddənin müddəalarına görə cərimələnə, həbslə cəzalandırıla bilər ya da ona bunların hər ikisi eyni zamanda tətbiq oluna bilər.

## MÜNDƏRİCAT

Ön söz ........ 2
Nizaməddin Şəmsizadə. *Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor* ........ 3
**Rizvan Hüseynov.** *Qafqaz Tarixi Mərkəzinin direktoru, UNESCO-nun mənəvi ənənələrin komparativ tədqiqatları, onların mədəni spesifikası və dinlərarası dialoq üzrə Kafedrasının dosenti, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi* ........ *6*
Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Milli Bayraq haqqında Qərarı ........ 7
Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ƏSASNAMƏ ........ 8
Azərbaycan Respublikası Prezidentinin S Ə R Ə N C A M I
Azərbaycan Respublikasının dovlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında ........ 9
Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu ........ 11
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 18
Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 20
Milli varlığımızın dövlət simvolu ........ 22
Dövlət bayrağına münasibət qaydaları ........ 26
Səudiyyə Ərəbistanı Krallığının bayrağı haqqında nizamnamə hicri tarixilə 1393-cü il ........ 37
ABŞ-ın Bayraq qanunu ........ 37-45

«Elm və Təhsil» mətbəəsinin direktoru:
professor Nadir MƏMMƏDLİ

Çapa imzalanmış 28.05.2017.
Şərti çap vərəqi 3. Sifariş № 489.
Kağız formatı 108x84 1/32. Tiraj 1000.

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.